UOT 341.01

# MƏNİMSƏMƏKLƏ VƏ İSRAF ETMƏKLƏ TALAMAĞA GÖRƏ MƏSULİYYƏT MÜƏYYƏN EDƏN CM-NİN 179-CU MADDƏSİNİN SANKSİYALARININ TƏKMİLLƏŞDİRİLMƏSİNƏ EHTİYAC VARDIR

**Mirəli Cameyi**
***Bakı Dövlət Universiteti***
***mirali cameyi@mail.ru***

*Məqalədə mənimsəmə və ya israf etməyə görə 1960-cı il CM-də müəyyən edilən sanksiya ilə qüvvədə olan CM-nin 179-cu maddəsinin sanksiyaları müqayisəli tədqiq edilir. Müəllif haqlı olaraq qeyd edir ki, keçmiş qanunla müəyyən edilən sanksiya ilə qüvvədə olan CM-nin 179-cu maddəsində nəzərdə tutulan sanksiyalar arasında varislik prinsipi pozulmuşdur. Məqalədə müəllif qüvvədə olan CM-nin 179-cu maddəsinin sanksiyalarının təkmilləşdirilməsi istiqamətdə təkliflər verir.*

**Açar sözlər:** Toplamaq, məsuliyyət, cinayət, qanun, sanksiya, cəza

Qəbul edilən yeni qanunda köhnə qanunla varislik gözlənilmədikdə yeni qanunun sosial dayaqları zəifləyir, onun ətrafında həmrəy ictimai rəyin formalaşması xeyli çətin olur.

Qeyd etdiyimiz mülahizə baxımından, mənimsəmə və ya israf etməyə görə qüvvədən düşmüş qanunda nəzərdə tutulan sanksiyalarla yeni qanunla bu cinayətə görə müəyyən edilən sanksiyaları müqayisə etmək lazım gəlir.

Fikrimizcə, qüvvədən düşən Cinayət Məcəlləsinin mənimsəmə və ya israf etməyə görə məsuliyyət müəyyən edən 93-8-ci maddəsinin 2-ci hissəsi ilə yeni Məcəllənin eyni əmələ görə məsuliyyət müəyyən edən 179.1-ci maddəsi arasında varislik pozulmuşdur.

Qüvvəsini itirən Cinayət Məcəlləsinin 93-8-ci maddəsinin 1-ci hissəsinin (eləcə də onun əvvəlki redaksiyasının 86-cı maddəsinin 1-ci hissəsinin) göstərişinə görə əmlakın minimum əmək haqqının 10 mislindən 100 mislinə qədər miqdarda talanması cinayət sayılan mənimsəmə və ya israf etmə kimi müəyyən edildiyi halda, yeni cinayət qanununun 179.1-ci maddəsində əmlakın 30 manatdan 1000 manatına qədər miqdarda talanması cinayət sayılan mənimsəmə və ya israf etmə kimi qiymətləndirilir.

Yeni Cinayət Məcəlləsinin 179.1-ci maddəsinin dispozisyasından belə

nəticəyə gəlmək olar ki, bir tərəfdən əmlakı mənimsəmə və ya israf etmə 30 manatdan min manatadək ziyan vurulduqda, digər tərəfdən qüvvəsini itirən qanunun 93-8-ci maddəsinin 2-ci hissəsində nəzərdə tutulan məsuliyyəti ağırlaşdıran hallarda törədilən mənimsəmə və ya israf etmə əməli az ağır cinayət hesab edildiyi halda, yeni Cinayət Məcəlləsinin 179-cu maddəsində bu əmələ yenidən qiymət verilmiş və o, az ağır cinayətlər kateqoriyasından çıxarılaraq böyük ictimai təhlükə törətməyən cinayətlər kateqoriyasına aid edilmişdir.

Yeni Cinayət Məcəlləsinin mənimsəmə və ya israf etməyə görə qurulan sanksiyası ilə qüvvədən düşən cinayət qanununun eyni əmələ görə məsuliyyət müəyyən edən 93-8-ci maddəsində nəzərdə tutulan sanksiya arasında da varislik gözlənilməmişdir.

Belə ki, yuxarıda qeyd edildiyi kimi qüvvədən düşən 93-8-ci maddənin 1-ci hissəsində minimum əmək haqqının 10 mislindən 100 mislinə qədər miqdarda əmlakın mənimsənilməsi və ya israf edilməsi ilə talanmasında ifadə olunan cinayət əməlinə görə bir ildən üç ilə qədər azadlıqdan məhrum etmə və ya minimum əmək haqqı məbləğinin min mislindən min iki yüz mislinə qədər miqdarda cərimə müəyyən edilirdi.

Şübhəsiz, köhnə qanunun müəyyən etdiyi belə sanksiya son dərəcə sərt idi və 93-8-ci maddənin 1-ci hissəsində nəzərdə tutulan cinayətin ağırlığına adekvat olmadığından ədalətli sayıla bilməzdi.

Burada sanksiya son dərəcə sərtləşdirildiyi halda, yeni Cinayət Məcəlləsində mənimsəmə və ya israf etmənin sadə növünə görə məsuliyyət müəyyən edən 179-cu maddənin 1-ci hissəsində xeyli yüngül, liberal sanksiya müəyyən edilmişdir.

Yuxarıda qeyd edildiyi kimi, məcəllənin 179.1-ci maddəsində 30 manatdan 1000 manata qədər miqdarda talamada ifadə olunan əməli cinayət hesab edilir. Əvvəla, burada ziyanın aşağı və yuxarı həddi arasındakı interval genişdir və buna görə də Cinayət Məcəlləsinin 177-ci maddəsinin qeydinə müəyyən edilən formal kriteriyaya haqq qazandırmaq olmaz. İkinci, mənimsəmə və ya israf etmənin sadə növünə görə 179.1-ci maddədə qurulan sanksiya cinayətin təhlükəlilik dərəcəsini düzgün əks etdirmədiyindən məqbul sayıla bilməz. Başqa sözlə, qurulan sanksiyaya daxil edilən cəza növləri ifrat yüngül olduğundan belə cəzaları 179.1-ci maddədə nəzərdə tutulan cinayətin təhlükəlilik dərəcəsinə adekvat saymaq olmaz.

Cinayət Məcəlləsinin 179.1-ci maddəsinin sanksiyasında göstərilən üç cəza növündən ən yüngülü cərimədir. Sanksiyanın göstərişinə görə, cərimə 100 manatdan 500 manata qədər miqdarda tətbiq edilir.

Əgər cəza təyin etməyə dair Cinayət Məcəlləsinin 58-ci maddəsində öz əksini tapan «cəzaya qənaət» prinsipinin tələbləri nəzərə alınarsa, məhkəmələr Cinayət Məcəlləsinin 179.1-ci maddəsilə məsuliyyəti həll edərkən bir qayda olaraq sanksiyada göstərilən ən yüngül cəzanı-cəriməni tətbiq etmək məcburiyyətində qalacaqdır. Belə olduqda məhkumun cinayət etməklə əldə etdiyi

fayda, cəzanın tətbiqi ilə itirəcəyindən dəfələrlə çox olacaqdır. Bu cür sanksiya şübhəsiz cinayətin «cazibədarlığını» gözdən salmağa xidmət edə bilməz.

Araşdırdığımız cinayətin ağırlaşdırıcı hallarına görə məsuliyyət müəyyən edən 179-cu maddənin 2-ci hissəsinin tərkib əlamətləri qurularkən müəyyən qüsura yol verilmişdir.

Əvvəla, bir-birilə alternativ ola bilməyən hallar alternativ hallar kimi təsbit edilmişdir. Belə ki, məcəllənin 179-cu maddəsinin 2-ci hissəsində təsbit edilən «xeyli miqdarda ziyan vurmaqla» mənimsəmə və ya israf etmə burada təsbit edilən digər alternativ hallarda törədilən mənimsəmə və ya israf etmədən öz təhlükəlilik dərəcəsinə görə daha ağırdır. Başqa sözlə, xeyli miqdarda ziyan vurmaqla mənimsəmə halı bu maddədə əsas tərkibdə göstərilən əməlin vurduğu ziyandan 7 dəfə ağırdır. Bu səbəbdən də «xeyli miqdarda ziyan vurmaqla» törədilən mənimsəmə və ya israf etmə halı ilə bu maddənin 2-ci hissəsində sadalanan hallarda alternativ formada təsbit edilməsini məqbul saymaq olmaz.

İkinci, qüvvədə olan qanun da ilk dəfə oğurluq edən və 30 manatdan 1000 manata qədər ziyan vuran şəxslərin əməli ilə eyni miqdarda ziyan vuran qabaqcadan əlbir olan dəstənin, təkrar əməl törədən şəxslərin, habelə qulluq mövqeyindən istifadə edən vəzifəli şəxslərin törətdiyi oğurluq arasında fərq qoyulmur.

Göründüyü kimi, vurulan ziyan əsas tərkibdə göstərilən miqdarda olsa da, mənimsəmə və ya israf etmə qabaqcadan əlbir olan dəstə tərəfindən təkrar, habelə qulluq mövqeyindən istifadə etməklə məsuliyyət 179-cu maddənin 2-ci hissəsi ilə həll edilir. Lakin bu məsələ üzrə məsuliyyətin diferensiasiyasında qanunverici orqan ardıcıl mövqe tuta bilməmişdir. Belə ki, araşdırdığımız maddənin 2-ci hissəsinin göstərişinə görə xeyli miqdarda ziyan vuran, lakin əməli ilk dəfə törədən şəxslərin cinayəti ilə dəstə tərəfindən, təkrar və ya qulluq mövqeyindən istifadə etməklə törədilən və xeyli miqdarda ziyan vuran əməlləri eyni əsaslarla tövsif edilir.

Göründüyü kimi, məcəllənin 179-cu maddəsinin 2-ci hissəsində iki istiqamətdə dəqiqləşdirmə aparılmalıdır. Birinci, «xeyli miqdarda» ziyan vurmaqla törədilən mənimsəmə və ya israf etmə halı öz ağırlığına görə qabaqcadan əlbir olan dəstə tərəfindən törədilən, təkrar törədilən, habelə qulluq mövqeyindən istifadə etməklə törədilən mənimsəmə və ya israf etmə halları ilə alternativ hüquqi hallar hesab edilə bilməzlər.

İkinci, qabaqcadan əlbir olan dəstə tərəfindən, təkrar, habelə qulluq mövqeyindən istifadə etməklə mənimsəmə və ya israf etmə əməlləri bir halda 30 manatdan 1000 manata qədər ziyan vura bilər. Başqa halda isə «xeyli miqdarda» ziyan vura bilər. Hər iki halda məsuliyyət eyni əsaslarla məcəllənin 179-cu maddəsinin 2-ci hissəsi ilə həll edilir. Belə vəziyyət məsuliyyətin diferensiasiyasının söykəndiyi prinsiplərin tələblərini pozur.

Daha sonra qeyd etmək lazımdır ki, məcəllənin 179-cu maddəsinin 2-ci hissəsində nəzərdə tutulan sanksiya dəqiqləşdirilməlidir.

Məcəllənin 179-cu maddəsinin 1-ci hissəsinin sanksiyası ilə 2-ci hissəsinin sanksiyası arasında heç bir fərq yoxdur.

Əslində əsas tərkiblərə görə qurulan sanksiyadakı sərt cəzanın yüksək həddi məsuliyyəti ağırlaşdıran halı olan tərkib üçün qurulan sanksiyanın aşağı həddini təşkil etməlidir. Buna riayət etmədikdə sanksiyalar arasında əlaqə qırılır. Bunun nəticəsidir ki, qüvvədə olan məcəllənin 179-cu maddəsinin 2-ci hissəsində qurulan sanksiya üzrə mənimsəmə və ya israf etməyə görə 2 ildən 3 ilə qədər müdətə azadlıqdan məhrum etmə cəzasının tətbiqi mümkün deyildir.

Qüvvədə olan Cinayət Məcəlləsinin Xüsusi hissəsində qurulan sanksiyalar arasında sabit intervallar çox halda yaradılmamışdır.

Elmi ədəbiyyatda müəlliflərdən İ.İ.Karpets azadlıqdan məhrum etmə cəzası nəzərdə tutan sanksiyaların arasında belə interval ölçüsü üç il müddət təklif etmişdir. Rusiya Federasiyasının qüvvədə olan Cinayət Məcəlləsinin Xüsusi hissəsi maddələrinin azadlıqdan məhrum etmə cəzası nəzərdə tutan sanksiyaları qurularkən bu ölçüdən geniş istifadə etmişdir.

Təəssüf ki, respublikanın qüvvədə olan Cinayət Məcəlləsinin Xüsusi hissəsində azadlıqdan məhrum etmə cəzası nəzərdə tutan sanksiyaların qurulmasında əsas tərkiblə məsuliyyəti ağırlaşdıran halı olan tərkiblər üçün qurulan sanksiyalarda azadlıqdan məhrum etmənin aşağı və yuxarı hədləri müəyyən edilərkən «sabit ölçülərdən» istifadə edilməmişdir.

Araşdırdığımız cinayətə görə məsuliyyət müəyyən edən 179-cu maddənin 1-ci hissəsinin sanksiyasında sərt cəza azadlıqdan məhrum etmə cəzasıdır və onun yüksək həddi 2 ildir. Bu maddənin 2-ci hissəsinin sanksiyasında bu cəza növünün yüksək həddi isə 7 ildir. Burada əsas tərkiblə məsuliyyəti ağırlaşdıran halı olan tərkibin sanksiyaları arasında 5 il interval müəyyən edilmişdir. Belə intervalı məqbul saymaq olmaz. Belə qüsurlu mənzərəni biz 179-cu maddənin 3-cü hissəsinin sanksiyasında da müşahidə edirik. Bundan əlavə, məcəllənin 177-ci maddəsinin qeydinə əsasən «xeyli miqdar» əlaməti min manatdan yeddi min manata qədər miqdarda talamanı nəzərdə tutur. Araşdırdığımız cinayətə görə məsuliyyət müəyyən edən 179-cu maddənin 2-ci hissəsinin sanksiyasında nəzərdə tutulan cərimənin yüksək həddi üç min manatdan artıq deyildir. Belə sanksiyanın şəxsə yetirəcəyi ziyanın miqyası ilə müqayisədə mənimsəmə və ya israf etmə formasında törədilən talama şəxsə iki dəfədən artıq faydalanmağa imkan verir.

Yuxarıda qeyd edilən mülahizə baxımından Cinayət Məcəlləsinin 179-cu maddəsinin 2-ci və 3-cü hissələri üzrə məsuliyyətin diferensiasiyasını uğurlu hesab etmək olmaz.

Şərh edilənlər əsasında aşağıdakı nəticələrə gəlirik:

1. Mənimsəmə və ya israf etmə əməlinin təkrar törədilməsi anlayışı ancaq Cinayət Məcəlləsinin Ümumi hissəsinin 16-cı maddəsinin 1-ci hissəsində «Cinayətlərin təkrar törədilməsi»nə verilən tərifə söykənməlidir. Burada deyilir: «Bu məcəllənin eyni bir maddəsi ilə nəzərdə tutulmuş cinayətin iki dəfə və

ya iki dəfədən çox törədilməsi hesab edilir».

Təkrar cinayətlərə qanunla verilən belə anlayış «təkrar cinayətlərin» elmi nəzəri anlayışına da uyğun gəldiyi üçün məqbul sayılmalıdır.

Qeyd edilən mövqedən məcəllənin 179-cu maddəsinin 2-ci hissəsində (mad. 179.2.2) nəzərdə tutulan «təkrar törətmə» əlaməti əslində əvvəllər mənimsəmə və ya israf etməyə yol vermiş şəxsin yenidən bu cinayəti törətməsini nəzərdə tutur. Başqa sözlə, burada təkrarlıq anlayışı **eyni cinayətin** təkrar törədilməsini nəzərdə tutur.

Lakin Cinayət Məcəlləsinin 16-cı maddəsinin 2-ci hissəsinin göstərişi mövqeyindən məcəllənin 177-ci maddəsinin qeydinin 3-cü hissəsində təsbit edilən «cinayətin təkrar törədilməsi»nin xüsusi anlayışı Cinayət Məcəlləsinin 179-cu maddəsində müəyyən edilən «təkrar törətmə» anlayışının məzmununu süni surətdə genişləndirir.

Bu anlayışın məzmunundan göründüyü kimi, eyni olmayan, lakin xarakterinə görə bir-birinə yaxın olan, iki və ya daha artıq cinayətlərin törədilməsi təkcə cinayətlərin məcmusunu deyil, həm də cinayətlərin təkrarlığı əlamətini də yaradır. Qanunda təkrar cinayətlərin xüsusi anlayışının müəyyən edilməsi (Cinayət Məcəlləsinin 16-cı maddəsinin 2-ci hissəsi, 177-ci maddənin qeydinin 3-cü hissəsi) cinayətlərin çoxluğunun təkrar və məcmu cinayətlər kimi növləri arasında fərqi aradan qaldırır, cinayətlərin çoxluğunun növlərinə dair elmi-nəzəri baxışları rədd edir.

Təkrar cinayətlərin qanunda təsbit edilən xüsusi anlayışı həm də praktiki baxımdan da zərərlidir. Cinayət Məcəlləsinin 177-ci maddəsinin qeydinin 3-cü hissəsinin göstərişini rəhbər tutduqda bir şəxsi həm cinayətlərin məcmuu üstündə, həm də «təkrar cinayət törətməyə» görə məsuliyyətə almış oluruq. Belə tövsif şəxsi faktiki iki cinayət törətdiyi halda, onu üç cinayəti törətmək üstündə məsuliyyətə almağa əsas olur. Qanunun belə mövqeyi əsas olmadan məsuliyyətin dairəsini süni surətdə genişləndirdiyi üçün Azərbaycan Respublikası Konstitutsiyasının 64-cü maddəsinin ruhuna ziddir.

2. Cinayət Məcəlləsinin 177-ci maddəsinin qeydinin 3-cü hissəsində göstərilən cinayəti «təkrar törətmənin» xüsusi anlayışı 1960-cı il Cinayət Məcəlləsindən, onun Xüsusi hissəsində 83-cü maddə nəzərdə tutulmuş təkrarlığın xüsusi anlayışından varis olmuşdur.

80-ci illərdə sosializm cəmiyyətinin ictimai-iqtisadi strukturunda baş verən deformasiyalar, inkişaf etməkdə olan «gizli iqtisadiyyat»ın qarşısını almaq üçün cinayət qanunları və onun tətbiqi getdikcə sərtləşdirilirdi. Belə bir dövrdə «dövlət və ya ictimai mülkiyyətin oğurlanmasına görə» məsuliyyəti sərtləşdirmək məqsədi ilə 1982-ci ilin dekabrında verilən fərmanla Cinayət Məcəlləsinin 83-cü maddəsinin və 143-cü maddəsinin qeydinə «təkrar cinayət»in anlayışı daxil edilmişdir.

3. Sosializm cəmiyyəti dağıldıqdan sonra azad bazar iqtisadiyyatının inkişaf etdiyi və sabitləşdiyi şəraitdə qüvvədə olan qanunlarla bütün mülkiyyət

formaları eyni əsaslarla qorunduğu şəraitdə qüvvədə olan Cinayət Məcəlləsinə təkrar cinayətlərin xüsusi anlayışının daxil edilməsi məqbul sayıla bilməz.

İnsanın, onun hüquq və azadlıqlarının ümumbəşəri dəyər kimi qorunmasının ön plana çəkildiyi şəraitdə mülkiyyətdə olan əmlakın qorunmasına üstünlük vermək və cinayət hüquqi təsir vasitələrini sərtləşdirmək məntiqsizlik yaradır.

4. Mənimsəmə və ya israf etmənin **təkrar törədilməsi** anlayışının praktikada qəbul edilən digər yozumu bu anlayışın həm araşdırılan əməlin təkrar törədilməsini, həm də belə əməllə bağlı təkrar məhkumluğu əhatə etməsinə dair baxışla bağlıdır.

Köhnə cinayət qanunvericiliyindən fərqli olaraq qüvvədə olan Cinayət Məcəlləsinin 16-cı və 18-ci maddələrində «təkrar cinayətlərlə residiv cinayətlər» arasında, habelə məcəllənin 177-ci maddəsinin qeydinin 2-ci və 3-cü hissələrində «təkrar cinayətlə» «təkrar məhkumluq» arasında fərq qoyulduğundan Cinayət Məcəlləsinin Xüsusi hissəsinin maddələrində, eləcə də 179-cu maddənin 2-ci hissəsində (179.2.2) təsbit edilən «təkrar törətmə» əlaməti əvvəllər mənimsəmə və ya israf etmə əməlinə yol vermiş məsuliyyətə alınmamış (əgər məsuliyyətə cəlb etmə müddəti keçməmişdirsə) şəxsin yenidən belə əməl törətməsini, habelə 177-ci maddənin qeydinin 3-cü hissəsində göstərilən cinayətlərdən hər hansı birini törətməsi və məsuliyyətə cəlb etmə müddəti keçməmiş şəxsin yenidən burada sadalanan cinayətlərdən birini etməsini nəzərdə tutur.

Buna görə də, Respublika Ali Məhkəməsi Plenumunun qərarlarında qeyd edilən əlamətlə bağlı öncə verilmiş genişləndirici izahatlara yenidən baxılmalıdır.

Qüvvədə olan Cinayət Məcəlləsinin Xüsusi hissəsində məsuliyyəti ağırlaşdıran halı olan tərkiblərin qurulmasında cinayətkarın şəxsiyyətinin təhlükəliliyi ilə bağlı olan əlamətdən (residivlik əlaməti) istifadə edilməsinə bir qayda olaraq yol verilmir.

Buna görə də, araşdırdığımız cinayətlərə görə məsuliyyət müəyyən edən maddədə təhlükəli residivin məsuliyyəti ağırlaşdıran tərkib əlaməti kimi müəyyən edilməsini məqbul saymaq olmaz. Əvvəllər talama və ya hədə-qorxu ilə tələb etmə üstündə məhkum olunmuş şəxsin yenidən belə əməli törətməsi ümumi əsaslarla, yəni bu cinayətin sadə növünə görə məsuliyyəti yaranmalıdır. Çünki şəxs öncə törətdiyi cinayətə görə mühakimə edildiyi və cəza çəkdiyi halda yenidən onu cinayətlərin çoxluğuna görə məsuliyyətə almaq-bu bir cinayətə görə şəxsin iki dəfə məhkum edilməsinə yol verilməsi və (Konstitutsiyanın 64-cü maddəsi) qanun qarşısında bərabərlik prinsipinin (mad. 6) pozulmasıdır ki, bunu da qüvvədə olan qanunvericilik qadağan edir.

Hazırda Cinayət Məcəlləsinin 179-cu maddəsinin 3-cü hissəsinə daxil edilən «əvvəllər talama və ya hədə-qorxu ilə tələb etməyə görə iki dəfə və ya daha çox məhkum edilən şəxs tərəfindən»…mənimsəmə və ya israf etməyə görə müəyyən edilən sanksiya yeddi ildən on iki ilə qədər müddətə azadlıqdan

məhrum etmə cəzası nəzərdə tutulur. Başqa sözlə, şəxs, təhlil etdiyimiz maddənin 1-ci hissəsi ilə məsuliyyətə alınmalı olduğu halda, qanunda xüsusi formulə edilən belə cinayət tərkibi (Cinayət Məcəlləsinin 179.3.3-cü maddəsi) ilə əməl tövsif edildiyindən onun məsuliyyəti altı dəfə ağırlaşmış olur.

Məsuliyyətin diferensasiyasında belə disproporsiyaya yol verməmək üçün Cinayət Məcəlləsinin 179.3.3 hissə qanundan çıxarılmalıdır. Mənimsəmə və ya israf etmə əməlini törətmiş şəxs başqa ağırlaşdırıcı hallar olmadıqda əsas tərkiblə məsuliyyətə alınmalı, onun öncə törətdiyi eyni, yaxud eyni növlü əmələ görə məhkumluğu şəxsiyyətinin təhlükəliliyinin əsas göstəricisi kimi ümumi əsaslarla, Cinayət Məcəlləsinin 65-ci maddəsinə əsasən sanksiya hüdudunda nəzərə alınmalıdır.

Cinayət Məcəlləsinin 179-cu maddəsinin 2-ci hissəsində tərkiblərin və sanksiyaların qurulmasında ziddiyyətə yol verilmişdir. Belə ki, otuz manatdan min manata qədər miqdarda mənimsəmə və ya israf etmə qabaqcadan əlbir olan dəstə tərəfindən, təkrar, habelə qulluq mövqeyindən istifadə etməklə törədilən hallarda da məsuliyyət 179.1 maddə ilə deyil, sadalanan şəxslər tərəfindən xeyli miqdarda ziyan vurmaqla (min manatdan yeddi min manata qədər) bağlı törədilən mənimsəmə və ya israf etməyə görə həll edilir.

Qeyd edilən kolliziyanı aradan qaldırmaq üçün 179-cu maddənin 2-ci hissəsini yeni redaksiyada verməyi zəruri sayırıq.

Burada mənimsəmə və ya israf etmənin «xeyli miqdarda ziyan vurmaqla» əlaməti Cinayət Məcəlləsinin 179.2.1-ci maddəsi kimi müəyyən edilsin. Bu maddə üçün sanksiya aşağıdakı məzmunda nəzərdə tutulsun:

«- 1000 manatdan 3000 manata qədər cərimə ilə və ya iki ildən dörd ilə qədər müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır».

Cinayət Məcəlləsinin 179.3.1; 179.3.2; 179.3.3 maddələri aşağıdakı redaksiyada müəyyən edilsin:

179.3.1.qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə;

179.3.2.təkrar törədildikdə;

179.3.3.şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə ;

üç min manatdan beş min manata qədər cərimə ilə, dörd ildən yeddi ilə qədər müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır;

179.4.1.mütəşəkkil dəstə tərəfindən xeyli miqdarda ziyan vurmaqla mənimsəmə və ya israf etmə;

179.4.2.külli miqdarda ziyan vurmaqla mənimsəmə və ya israf etmə:

yeddi ildən on iki ilə qədər müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Yuxarıda residivlə əlaqədar şərh etdiyimiz mülahizələr əsasında qüvvədə olan Cinayət Məcəlləsinin 179-cu maddəsinin 3-cü hissəsində «əvvəllər talama və ya hədə-qorxu ilə tələb etməyə görə iki dəfə və ya çox məhkum edilmiş şəxs tərəfindən törədilmə»-əlaməti (qanunda təsbit edilmiş 179.3.3) qanundan çıxarılsın.

**ƏDƏBİYYAT**

1. Карпец И.И. Наказание. Социальные и криминологические проблемы. М.: Юрид. лит-ра, 1973, с. 241.
2. Коробеев А. И. Советская уголовно - правовая политика. Владивосток: Право, 1987, 311 с.
3. Кригер Г.Л. Уголовная ответственность и наказания. В сб.: Совершенствование мер борьбы с преступностью в условиях научно-технической ревалюции. М.: Наука, 1980, 286 с.
4. Кругликов Л.Л. Классификация уголовно-правовых санкций // журн. Советское государство, 1983, №5, с. 27-32.
5. Мустафаев Ч.Ф. Проблемы уголовной ответственности за хищение имущества. Баку: Елм, 1995, 237 с.
6. Уголовное право. Актуальные проблемы теории и практики: сборник очерков / Под ред. В.В.Лунева. М.: Юрайт, 2010, 341 с.
7. Səməndərov F.Y. Cinayət hüququ. Dərslik. Bakı: BDU, 2008, 699 c.

## О НЕОБХОДИМОСТИ СОВЕРШЕНСТВОВАНИЯ САНКЦИИ СТ.179 УК, УСТАНАВЛИВАЮЩЕЙ ОТВЕТСТВЕННОСТЬ ЗА ПРИСВОЕНИЕ ИЛИ РАСТРАТУ ЧУЖОГО ИМУЩЕСТВА

**Мирали Джамейи**

### РЕЗЮМЕ

В статье проводится сравнительный анализ санкции за присвоение или растрату чужого имущества в УК 1960 года и УК Азербайджанской Республики 1999 года. По определению автора законодатель нарушил принцип преемственности при определении санкции за это преступление в действующем УК 1999 года. В статье автором приводятся предложения по совершенствованию санкции ст. 179 УК 1999 года.

**Ключевые слова:** ограбить, ответственность, преступление, право, санкция, наказание

## THE URGENCY OF PERFECTION OF SANCTIONS UNDER ARTICLE 179 OF CC ESTABLISHING RESPONSIBILITY FOR PLUNDER BY APPROPRIATION OR WASTE

**Mirali Jameyi**

### SUMMARY

The article researches sanctions of 1960 of CC for plunder by appropriation or waste and CC of the Azerbaijan Republic of 1999.

The author grounds that the inheritance principle between sanctions considered by the past Criminal Legislation, envisaged by article 179 of the present Criminal Code is violated.

The author makes proposals on the improvement of sanctions envisaged by article 179 of the presently in force Criminal Code.

**Key words:** sack, editor, criminal, right, sanction, punishment